# Azərbaycan Respublikası və Estoniya Respublikası arasındakı münasibətlərə dair

# ARAYIŞ

## QISA TARİXİ MƏLUMAT

Azərbaycan Respublikası Estoniya Respublikasının müstəqilliyini 6 dekabr 1991-ci il tarixində tanımışdır.

Estoniya Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 20 fevral 1992-ci ildə tanımışdır. Estoniya və Azərbaycan arasında diplomatik münasibətlər 20 iyun 1992-ci ildə qurulmuşdur.

10 aprel 2007-ci il tarixində Azərbaycan Respublikasının Latviyadakı fövqəladə və səlahiyyətli səfiri T.Zülfüqarov iqamətgahı Riqa şəhərində olmaqla eyni zamanda Azərbaycan Respublikasının Estoniya Respublikasında səfiri təyin edilmişdir. 11 oktyabr 2010-cu il tarixində T.Zülfüqarov iqamətgahı Tallin şəhərində olmaqla Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir. 2010-cu ilin sonunda Azərbaycan Respublikasının Estoniya Respublikasındakı Səfirliyi Tallin şəhərində fəaliyyətə başlamışdır.

22 fevral 2005-ci il tarixində ilk dəfə olaraq Estoniya Respublikasının Türkiyə Respublikasındakı Səfiri Azərbaycan Republikasında akkreditə olunmuşdur. Estoniya Respublikasının iqamətgahı Ankara şəhəri olmaqla Azərbaycan Respublikasındakı hazırki səfiri M.Haljasdır.

# YÜKSƏK SƏVİYYƏLİ SƏFƏRLƏR

**Prezidentlər (dövlət səfərləri)**

Azərbaycana

- 12-15 yanvar 2009-cu il, Prezident Toomas Hendrik İlves.

Estoniyaya

- 6-8 aprel 2010-cu il, Prezident İlham Əliyev.

**Parlamentin sədr və sədr müavinləri**

Azərbaycana

- 18-19 iyun 2007-ci il, sədr müavini K.Oyuland, işgüzar səfər;
- 31 mart – 3 aprel 2008-ci il, sədr müavini K.Oyuland, rəsmi səfər;
- 18-20 iyun 2008-ci il, sədr müavini K.Oyuland, işgüzar səfər;
- 28 iyun – 1 iyul 2012-ci il, sədr E.Erqma, rəsmi səfər.

Estoniyaya

- 5-6 iyun 2006-cı il, sədr O.Əsədov, işgüzar səfər.

**Baş nazirlər**

Azərbaycana

- 13-14 noyabr 2008-ci il, Baş nazir A.Ansip, işgüzar səfər.

**Xarici işlər nazirləri**

Azərbaycana

- 14-16 fevral 1996-cı il, nazir S.Kallas;
- 1-3mart 2000-ci il, nazir, T.H.İlves;
- 12 iyun 2004-cü il, nazir K.Oyuland;
- 29-30 oktyabr 2007-ci il, nazir U.Paet;

Estoniyaya

- 24-25 aprel 2008, nazir E.Məmmədyarov.

**Digər səfərlər:**

Estoniyaya

- 28 mart 2004-cü ildə Xaricdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin sədri N.İbrahimov Estoniyaya səfər etmişdir;
- 4-6 dekabr 2007-ci il tarixlərində Azərbaycan Respublikasının müdafiə naziri S.Əbiyev Estoniyaya səfər etmişdir;
- 21-24 yanvar 2008-ci il tarixlərində Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri H.Babayev Estoniyaya səfər etmişdir;
- 12-14 may 2011-ci il tarixlərində Estoniyada keçirilmiş GUAM Parlament Assambleyasının parlament seminarında Milli Məclisin deputatları E.Məmmədov və Ə.Məsimli iştirak etmişdir;
- 24-26 noyabr 2011-ci il tarixlərində Milli Məclisin deputatları E.Məmmədov və Ə.Məsimli Baltik Assambleyasının 30-cu sessiyasında iştirak etmək üçün Estoniyaya səfər etmişdir;
- 24-29 may 2012-ci il tarixlərində Milli Məclis Sədrinin birinci müavini Z.Əsgərovun başçılığı ilə nümayəndə heyəti NATO Parlament Assambleyasının yaz sessiyasında iştirak etmək üçün Estoniyaya səfər etmişdir.

Azərbaycana

- 5-6 fevral 1999-cu il tarixlərində Estoniya kənd təsərrüfatı naziri A.Varik Bakıya səfər etmişdir.
- 6 iyun 2001-ci ildə Bakıda keçirilmiş Dəmir yolu Əməkdaşlıq Təşkilatına daxil olan Hökumətlərin Nazirlər Müşavirəsinin XXIX iclasında Estoniyanın Dəmir yolu nəqliyyatının rəhbəri iştirak etmişdir.
- 13 iyun 2004-cü ildə Estoniyanın miqrasiya məsələləri üzrə naziri P.E.Rummonun başçılıq etdiyi nümayəndə heyəti Bakıya səfər etmişdir.
- 1 noyabr 2004-cü ildə Estoniya Parlamentinin Xarici əlaqələr Komitəsinin sədri M.Mikhelsonun başçılıq etdiyi nümayəndə heyəti Bakıya səfər etmişdir.
- 29 may 2008-ci ildə Estoniya Müdafiə Qüvvələrinin komandanı general-leytenant A.Laaneots Bakıya səfər etmişdir.
- 29 sentyabr 2008-ci ildə Bakıda Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfransın (SMBK) Sərhəd xidmətləri rəhbərlərinin işçi qrupunun növbəti iclasında Estoniya sərhəd xidmətinin nümayəndəsi iştirak etmişdir.
- 13-14 noyabr 2008-ci ildə Bakıda keçirilmiş Enerji Sammitində Estoniya Baş naziri A.Ansip iştirak etmişdir.
- Estoniyanın sabiq prezidenti A.Rüütel Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü ilə bağlı 23 sentyabr 2011-ci il tarixində Bakıda keçirilmiş beynəlxalq tədbirdə, oktyabrın 4-də keçirilən Bakı Beynəlxalq Humanitar Forumunda, noyabrın 22-də 17-ci Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgi və Konfransında iştirak etmişdir.

- Estoniya Parlementinin sədr müavini L.Randyarv Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü ilə bağlı 23 sentyabr 2011-ci il tarixində Bakıda keçirilmiş beynəlxalq tədbirdə iştirak etmişdir.
- 25 noyabr 2011-ci ildə Qəbələdə Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsünün – İDEA-nın təşkilatçılığı ilə keçirilmiş tədbirdə Estoniyanın parlament üzvləri R.Vakra və D.Borodiç iştirak etmişdir.
- Estoniya kənd təsərrüfatı naziri X.V.Seeder 23-24 aprel 2012-ci il tarixlərində BMT-nin Avropa üzrə ərzaq və kənd təsərrüfatı təşkilatının Bakıda keçirilmiş 28-ci regional konfransında iştirak etmişdir.
- Estoniyanın İqtisadi Əlaqələr və Rabitə Nazirliyinin baş katibinin müavini P. Eero, 5-8 iyun 2012-ci ildə Bakıda keçirilmiş Dəmir yolu Əməkdaşlıq Təşkilatına daxil olan Hökumətlərin Nazirlər Müşavirəsinin 40-cı iclasında iştirak etmişdir.
- Estoniyanın iqtisadi əlaqələr və rabitə naziri Y. Parts 28-29 iyun 2012-ci il tarixlərində Ticarət və iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Estoniya Hökumətlərarası Komissiyasının birinci iclasında sədrlik etmək üçün Bakıya səfər etmişdir.
- Estoniyanın sabiq prezidenti A.Rüütel 2012-ci ilin 3-6 oktyabr tarixlərində keçirilən II Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmişdir.

## PARLAMENTLƏRARASI ƏLAQƏLƏR

Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan-Estoniya parlamentlərarası əlaqələr üzrə dostluq qrupu 5 dekabr 2000-ci ildə, Estoniya Parlamentində isə Estoniya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupu 4 mart 2007-ci ildə yaradılmışdır.

Azərbaycan-Estoniya parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun tərkibi:

| **Azərbaycan tərəfindən** | **Estoniya tərəfindən** |
|---|---|
| Əli Hüseynli, dostluq qrupunun rəhbəri | Eldar Əfəndiyev, dostluq qrupunun rəhbəri |
| 1. Leyla Abdullayeva | 1. Sven Sester, rəhbərin müavini |
| 2. Azər Kərimli | 2. Jaak Allik |
| 3. Musa Qasımlı | 3. Peep Aru |
| 4. Azay Quliyev | 4. Deniss Boroditš |
| 5. İlham Məmmədov | 5. Enn Eesmaa |
| 6. Gülçöhrə Məmmədova | 6. Siim Kabrits |
| 7. Aytən Mustafayeva | 7. Valeri Korb |
| 8. Ceyhun Osmanlı | 8. Peeter Laurson |
| 9. Hacı Salayev | 9. Mart Nutt |
| | 10. Liisa-Ly Pakosta |
| | 11. Juku-Kalle Raid |
| | 12. Mailis Reps |
| | 13. Yana Toom |
| | 14. Vladimir Velman |
| | 15. Jaan Õunapuu |

# SİYASİ SAHƏDƏ ƏMƏKDAŞLIQ

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Estoniya Respublikası Xarici İşlər Nazirliyi arasında ilk siyasi məsləhətləşmələr 1999-cu ilin dekabr ayında Estoniyada keçirilmişdir.

**Siyasi sazişlər**

1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Estoniya Respublikası Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında Saziş. Bakı, 17 may 1994-cü il;
2. Azərbaycan Respublikası xarici işlər naziri ilə Estoniya Respublikası xarici işlər naziri arasında imzalanmış Birgə Bəyanat. Bakı, 15 fevral 1996-cı il;
3. Azərbaycan Respublikası xarici işlər naziri ilə Estoniya Respublikası xarici işlər naziri arasında imzalanmış Birgə Bəyanat. Bakı, 2 mart 2000-ci il;
4. Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Estoniya Respublikası Müdafiə Nazirliyi arasında Hərbi Əməkdaşlıq haqqında Anlaşma Memorandumu. Tallin, 5 dekabr 2007;
5. Azərbaycan Respublikası Prezidenti və Estoniya Respublikası Prezidentinin Birgə Bəyannaməsi. Bakı, 13 yanvar 2009-cu il;
6. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Estoniya Respublikasının Sərhəd Mühafizə İdarəsi arasında əməkdaşlığa dair Saziş. Tallinn, 29 dekabr 2009;
7. Azərbaycan Respublikası Prezidenti və Estoniya Respublikası Prezidentinin Birgə Bəyannaməsi. Tallinn, 7 aprel 2010-cu il;
8. Azərbaycan Respublikası Hökuməti ilə Estoniya Respublikası Hökuməti arasında diplomatik pasportlara malik şəxslər üçün viza tələbinin ləğv edilməsi haqqında Saziş. Tallinn, 7 aprel 2010-cu il.

**Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Estoniyanın rəsmi mövqeyi**

- "Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumtanınmış prinsipləri və normaları, xüsusilə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və ATƏT-in Lissabon Şammitinin üç prinsipinə, uyğun olaraq suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında tezliklə həll olunmasının vacibliyini vurğulayırlar" (*Azərbaycan Respublikası Prezidenti və Estoniya Respublikası Prezidentinin 7 aprel 2010-cu il və 13 yanvar 2009-cu il tarixli Birgə Bəyannamələrindən çıxarış*).

- "Tərəflər Ermənistan-Azərbaycan münaqişəsinin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında və BMT və ATƏT-in münaqişənin həllinə yönəldilmiş müvafiq qətnamə və prinsiplərinə uyğun olaraq həll edilməsini dəstəkləyirlər və münaqişənin tənzimlənməsində ATƏT-in rolunu xüsusi vurğulayırlar" (*Azərbaycan Respublikası xarici işlər naziri ilə Estoniya Respublikası xarici işlər naziri arasında imzalanmış 2 mart 2000-cu il tarixli Birgə Bəyanatdan çıxarış*).

# İQTİSADİ SAHƏDƏ ƏMƏKDAŞLIQ

**Birgə komissiya**

Azərbaycan və Estoniya arasındakı iqtisadi əlaqələr son zamanlar artmaqdadır. Əlaqələrin inkişafı üçün böyük potensial mövcuddur. Azərbaycan tərəfi qida sənayesi, elektrik təchizatı, toxuculuq, mebel və taxta sənayesi, turizm sahəsində əməkdaşlıq etməkdə, Estoniya tərəfi isə özünün İKT və elektron hökumət sahəsindəki təcrübəsini bölüşməkdə maraqlıdır.

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya Azərbaycan Respublikası Prezidentinin 21 noyabr 2011-ci il tarixli, 1850 nömrəli Sərəncamı ilə yaradılmışdır. Azərbaycan tərəfdən komissiyanın həmsədri Rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, Estoniya tərəfdən isə iqtisadi əlaqələr və rabitə naziri Yuhan Partsdır.

Ticarət və iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Estoniya Hökumətlərarası Komissiyasının birinci iclası 28 iyun 2012-ci il tarixində Bakıda keçirilmişdir.

**Ticarət dövriyyəsi** (milyon ABŞ dolları)

| **Tarix** | **İdxal** | **İxrac** | **Ticarət dövriyyəsi** |
|---|---|---|---|
| 2004 | 1,27 | 0,09 | 1,36 |
| 2005 | 1,07 | 1,46 | 2,53 |
| 2006 | 1,64 | 0,52 | 2,17 |
| 2007 | 14,5 | 0,5 | 15 |
| 2008 | 5.5 | 0.7 | 6.2 |
| 2009 | 1.81 | 0.4 | 2,21 |
| 2010 | 6,65 | 0,46 | 7,11 |
| 2011 | 4,14 | 0,66 | 4,80 |
| 2012, I yarımil | 0,702 | 0,246 | 0,949 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2012

**Birgə layihə və tədbirlər**

1. Azərbaycan-Estoniya biznes forumu 2007-ci ilin 29 oktyabr tarixində Bakıda keçirilmişdir;
2. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə 2008-ci ilin 24 yanvar tarixində Tallində Azərbaycan-Estoniya biznes forumu keçirilmişdir;
3. Azərbaycan-Estoniya İKT biznes forumu 2009-cu ilin 13 yanvar tarixində Bakıda keçirilmişdir;
4. Azərbaycan-Estoniya biznes forumu 2012-ci ilin 29 iyun tarixində Bakıda keçirilmişdir.

**<u>Əsas saziş və müqavilələr</u>**

1. Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı əməkdaşlıq haqqında Saziş. Bakı, 2 mart 2000-ci il;

2. Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş. Bakı, 2 mart 2000-ci il;

3. Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiyanın Protokolu. Bakı, 30 oktyabr 2007-ci il;

4. Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum. Bakı, 27 aprel 2009-cu il;

5. Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş. Nyu-York, 23 sentyabr 2009-cu il;

6. Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş. Tallin, 7 aprel 2010-cu il;

7. Azərbaycan Respublikası və Estoniya Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 1-ci iclasının Protokolu, Bakı, 28 iyun 2012-ci il;

8. Hazırda tərəflər arasında "Azərbaycan Respublikasının Kənd Təsərrrüfatı Nazirliyi və Estoniya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş" və "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"lərin imzalanması nəzərdə tutulmuşdur.

9. "Azərbaycan Respublikası Hökuməti ilə Estoniya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş" və "Azərbaycan Respublikası Hökuməti ilə Estoniya Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş" razılaşdırılma mərhələsindədir.

10. "Azərbaycan Respublikası Hökuməti ilə Estoniya Respublikası Hökuməti arasında pensiya sığortası haqqında Saziş" razılaşdırılma mərhələsindədir.

# HUMANİTAR SAHƏDƏ ƏMƏKDAŞLIQ

**Birgə layihə və mədəni tədbirlər**

- Estoniyada, Kamal Abdullanın "Ruh" kitabı, Mirzə Şəfi Vazeh, Molla Pənah Vaqif və Mirzə Fətəli Axundovun əsərləri eston dilinə tərcümə edilmiş, "Türk dünyası yer adları" kitabı çap etdirilmiş və Estonca-Azərbaycanca lüğət tərtib olunmuşdur. Həmçinin, Estoniyada məskunlaşmış soydaşımız Cəfər Məmmədov tərəfindən "Estonlar Azərbaycanda" və Vidadi Məmmədov tərəfindən "Dədə Qorqud" kitabı eston dilinə tərcümə edilmişdir.
- 4-5 may 2007-ci ildə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin doğum günü ilə əlaqədar Tallində A.Qasımovun iştirakı Azərbaycan milli musiqisindən ibarət konsert təşkil olunmuşdur.
- 26 fevral 2008-ci ildə Tallin şəhəri tarixi muzeyində Estoniyanın rəsmi şəxslərinin iştirakı ilə Xocalı soyqırımının 16-cı ildönümü anılmışdır.
- 10 may 2008-ci ildə Səfirliyin dəstəyi ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi qeyd olunmuşdur.
- 28 may 2008-ci ildə Tallində "Aydan" Azərbaycan-Estoniya Mədəniyyət Mərkəzində Estoniya dövlət rəsmilərinin iştirakı ilə Azərbaycan Demokratik Respublikasının yaradılmasının 90 illiyi münasibətilə böyük tədbir keçirilmişdir.
- 25 sentyabr 2008-ci ildə Tallində fəaliyyət göstərən Kukla teatrının həmyerlimiz Azərbaycanın əməkdar artisti Rauf Avşarovun rəhbərlik etdiyi yaradıcı heyəti ölkəmizdə səfərdə olmuşdur.
- 22 mart 2009-cı ildə Estoniyada milli mətbəx və milli konsert təşkil olunaraq Novruz bayramı qeyd olunmuşdur.
- 9 aprel 2009-cu il tarixində Estoniyada Azərbaycanın milli bayramları və matəm günlərinə həsr olunmuş "Azərbaycanlılar" kitabı çapdan çıxmışdır.
- 26 fevral 2010-cu ildə Xocalı soyqırımının 18-ci ildönümü anılmış, "Xocalıya Ədalət" kompaniyası və www.justiceforkhojaly.org saytı barəsində təqdimat edilmişdir.
- 2011-ci ildən başlayaraq Estoniyanın "R4" dövlət radiokanalında müntəzəm olaraq ayda 1 dəfə "Ocaq" verilişi yayımlanır. Verilişin redaktoru S.Əliyevadır. Verilişdə Azərbaycan reallıqları, tarixi, mədəniyyəti və s. təbliğ olunur, iki ölkənin sosial-ictimai həyatına, eləcə də Azərbaycan ilə Estoniya arasında münasibətlərə aid xəbərlər verilir.
- 26 fevral 2011-ci ildə Tallində "Lindakivi" Mədəniyyət Mərkəzində Xocalı soyqırımının 19-cu ildönümünə həsr olunmuş anım mərasimi keçirilmişdir.
- 23-27 mart 2011-ci il tarixlərində Estoniyanın Rakvere şəhərində 5-ci Beynəlxalq İ.S.Bax müsabiqəsi keçirilmişdir. Müsabiqədə Azərbaycandan Bakıda yerləşən G.G.Şaroyev adına 35 saylı musiqi məktəbinin 6-cı sinif şagirdi 17.09.1999-cu il təvəllüdü Nəriman Əmiraslanov 10-12 yaş kateqoriyasında iştirak etmişdir.Azərbaycanlı iştirakçı müsabiqə münsifləri tərəfindən ən yüksək qiymətlər verilməklə, birinci yerə layiq görülərək müsabiqənin laureatı olmuşdur.
- 9 aprel 2011-ci il tarixində Azərbaycanın Estoniyadakı Səfirliyi müntəzəm olaraq Azərbaycan mədəniyyət günləri keçirilən Tallin Vormsi uşaq baxçasına proektor və ekran hədiyyə etmişdir.
- 18 oktyabr 2011-ci il tarixində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü ilə bağlı Tallinin Ratuşa bələdiyyə binasında tədbir keçirilmişdir. Mədəni proqram çərçivəsində Estoniyada fəaliyyət göstərən "Graatsia" studiyasının hazırladığı Azərbaycan milli rəqsləri nümayiş etdirilmiş, M.Maqomayevin mahnıları ifa olunmuşdur.

- 18 noyabr 2011-ci ildə Tallində “Qara Gecələr” Beynəlxalq Film Festivalında Azərbaycan “Buta” filmi ilə təmsil olunmuşdur. Film Festivalı çərçivəsində Estoniyada fəaliyyət göstərən Azərbaycan diasporunun və Səfirliyin dəstəyi ilə Azərbaycana həsr olunmuş təqdimat keçirilmişdir. Bakı şəhəri haqqında “A day in the city” adlı videofilm nümayiş etdirilmişdir. Tədbirdə “Graatsia” rəqs studiyasının ifasında Azərbaycan milli rəqsləri təqdim olunmuşdur. Ümumiyyətlə, “Graatsia” rəqs studiyası ilə sıx əməkdaşlıq qurulmuşdur və bu studiyaya Azərbaycan Respublikasının Estoniyadakı səfirliyi tərəfindən dəstək verilir, dövlət əhəmiyyətli tədbirlərdə rəqs qrupu milli rəqslərlə çıxış edir.
- 17 dekabr 2011-ci il tarixində “İctimai Televiziya və Radio Yayımları” şirkəti və “Tallinna TV” teleşirkəti arasında əldə olunmuş razılaşmaya əsasən Səfirliyin və Estoniyada fəaliyyət göstərən azərbaycan diasporunun dəstəyi ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş telekörpü keçirilmişdir. Səfir T.Zülfüqarov, Estoniya Parlamentinin üzvü D.Borodiç, Tallin şəhərinin Kristina inzibati rayonunun rəhbəri A.Novikov, Azərbaycan Mədəniyyət Mərkəzinin sədri N.Hacıyev, Estoniya Kukla Teatrının rəhbəri Azərbaycanın əməkdar artisti R.Avşarovun və Azərbaycanla əlaqəli olan Estoniya ictimaiyyətinin, eləcə də azərbaycan diasporunun nümayəndələrinin iştirak etdikləri telekörpüdə fəxri qonaq qismində Estoniyanın sabiq Prezidenti Arnold Rüytel dəvət olunaraq iştirak etmişdir. Tədbirin keçirilməsi “Tallinna TV” telekanalının 17.12.11-ci il tarixli xəbər buraxılışında işıqlandırılmışdır.
- 2012-ci il yanvarın 29-dan fevralın 4-dək Estoniyanın Narva şəhərində keçirilən gənc pianoçuların Frederik Şopen adına IX Beynəlxalq Musiqi Müsabiqəsində Bülbül adına Orta İxtisas Musiqi Məktəbin tələbələri Rüstəm Zeynalov müsabiqənin baş mükafatına - «Qran-Pri»yə və Nərmin Nəcəfli isə orta yaş qrupunda I yerə layiq görülmüşdür.
- 2012-ci il 9 fevral tarixində Estoniya Parlamentində Parlament Prezidenti xanım E.Erqma ilə görüş keçirilmişdir. Azərbaycan Respublikasının Estoniyadakı səfiri Parlamentdə iki vitse-spikeri Y.Ratas və L.Ranyarv, Estoniya-Azərbaycan qrupunun üzvləri, AŞPA Monitorinq Komitəsinin sədri Andres Herkel də iştirak etmişdir. Səfir Azərbaycana aid çoxsaylı suallara cavab vermiş, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və münaqişənin tənzimlənməsi aspektləri, regionda cərəyan edən proseslər, Azərbaycanın müasir dövrdə sürətli inkişafı və s. barədə məlumat vermişdir.
- 27 fevral 2012-ci ildə “Xocalıya Ədalət” kampaniyası çərçivəsində Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycan və Estoniya dövlət rəsmilərinin iştirakı ilə Xocalı soyqırımının 20-ci ildönümünə həsr olunmuş anma mərasimi keçirilmişdir. Tədbirdə Eston-lüteran kilsəsinin Baş yepiskopu A.Piter Xocalı faciəsi qurbanlarının xatirəsini yad etmək üçün bir-dəqiqəlik sükut elan etmiş və onların xatirəsinə dua oxumuşdur. Tədbirdə Xocalı soyqırımı haqqında xüsusi olaraq hazırlanmış “Justice call” adlı film nümayiş etdirilmiş və sərgi təşkil olunmuşdur. Tədbir iştirakçılarına Heydər Əliyev Fondunun hazırladığı Xocalı soyqırmına aid materiallar paylanılmışdır. Bununla yanaşı, 25-26 fevral 2012-ci il tarixlərində Estoniyada fəaliyyət göstərən “Tallinna TV” və “TVN” telekanallarında Azərbaycan haqqında 1-saatlıq film nümayiş etdirilmişdir. Ümumiyyətlə, Estoniyanın “Tallinna TV” və “TVN” kanallarında “Şərq xüsusi məsələ” (Восток-дело личное) buraxılışında Azərbaycanın tarixi əhəmiyyətli günlərində filmlər nümayiş etdirilir.
- 21-24 mart 2012-ci il tarixlərində Estoniyada Kohtla-Yarve şəhərində gənc ifaçılar arasında VII Beynəlxalq Akademik Vokal Müsabiqəsi keçirilmişdir. Müsabiqədə 12-14 yaş qrupu arasında Azərbaycan Dövlət Uşaq Filarmoniyasının solisti İbrahim Nəsrullayev və Fikrət Əmirov adına 6-cı incəsənət məktəbinin şagirdi Eldar Tahirov birinci mükafata, həmin məktəbin şagirdi Mərziyyə Hüseynova isə ikinci mükafata layiq görülmüşlər.

- 28 aprel 2012-ci ildə Estoniyadakı milli azlıqların Bazar Günü Məktəblərinin Müəllimləri Birliyi "Şərq qadını Firuzə" Qeyri-Kommersiya Təşkilatı ilə birlikdə Estoniyanın Keyla şəhərindəki məktəbdə İslam xalqlarının Mədəniyyəti Gününü təşkil etmişlər. Keyla məktəbinin eston şagirdləri üçün tədbirin hazırlanması və keçirilməsində Azərbaycan, Dağıstan bazar günü məktəblərinin müəllim və şagirdləri iştirak etmişlər. Rauf Avşarovun kukla teatrının Azərbaycan əfsanələri əsasında hazırladığı "Qız qalası" tamaşası nümayiş etdirilmişdir. Şagirdlərə siniflərdə müxtəlif mövzularda dərslər keçilmişdir. Yuxarı sinif şagirdləri ilə görüşdə Azərbaycanın Estoniyadakı səfirliyinin əməkdaşları ölkəmiz barədə məlumat vermiş, Azərbaycanın bu günündən bəhs edən film nümayiş etdirilmişdir. Səfirliyin əməkdaşları şagirdlərin çoxsaylı suallarına cavab vermişlər. Məktəbdə Azərbaycan, Dağıstan və Türkiyə xalqlarının mədəniyyətindən və ənənələrindən bəhs edən sərgi təşkil olunmuşdu.
- 28 may 2012-ci ildə Tallinn Şəhər Şurasının binasında Azərbaycan rəssamları İradə və Rza Avşarların əsərlərindən ibarət "Kaks tiiba" ("İki qanad") adlı bir həftəlik sərgi keçirilmişdir.
- "Eurovision" mahnı müsabiqəsi zamanı Azərbaycana səfərləri təşkil olunmuş Estoniyada tanınmış jurnalistlər A.Tsukerman V.Vladislavlevin müəllif olduqları "Subboteya" verilişi Baltik yani ölkələrdə böyük auditoriyaya malik olan "PBK" telekanalında iki dəfə 3 iyun və 10 iyun tarixlərinə yayyımlanmışdır. Həmin verilişlər Azərbaycanda keçirilmiş "Eurovision 2012" mahnı müsabiqəsinə, Azərbaycanın mədəniyyətinə, tarixinə həsr olunmuşdur.
- 6 noyabr 2012-ci ildə Azərbaycan Respublikasının Estoniyadakı Səfirliyinin Estoniya-Azərbaycan Parlament Qrupunun sədri E.Əfəndiyev daxil olmaqla Qrupun üzvlərinin, eləcə də Azərbaycan icması nümayəndələrinin iştirakı ilə Estoniya Parlamentinin Prezidenti x-m E.Erqma ilə görüş keçirilmişdir. Görüş E.Erqmanın cari ilin 28 iyun-1 iyul tarixlərinə Azərbaycana etdiyi rəsmi səfərdən sonra ölkəmizə olan marağı ilə əlaqədar Azərbaycan mədəniyyətini təbliğ etdirmək məqsədini daşıyırdı. Görüşdə, həmçinin, Estoniya İctimai Teleradioyayım Birliyinin idarə heyətinin sədri M.Allikmaa və Estoniyanın media maqnatı Hans Luik də iştirak etmişlər.
- Müntəzəm olaraq Estoniyanın böyük informasiya portalları olan delfi.ee və postimees.ee internet səhifələrində Azərbaycan reallıqları, ölkəmizin inkişafı, regionda mövcud vəziyyət, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı və s. mövzularda məqalələr çap etdirilir, yerli televiziya kanallarında Ermənistan Azərbaycan Dağlıq-Qarabağ münaqişəsi, Xocalı soyqrımı, Azərbaycanın mədəniyyəti, tarixi, əldə etdiyi nailiyyətlər əks etdirən filmlər nümayiş etdirilir.

**Tələbə mübadiləsi**

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na Tallin Texniki Universtiteti və Tartu Universiteti əlavə edilmişdir.

**Təlim proqramları**

Azərbaycan müxtəlif dövlət qurumlarının nümayəndələri Tallində yerləşən Estoniya Şərq Tərəfdaşlığı Mərkəzinin təşkil etdiyi təlim və seminarlarda iştirak edirlər.

**Əsas saziş və müqavilələr**

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Estoniya Respublikasının Təhsil və Tədqiqat Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş. Tallin, 7 aprel 2010.